***TÜRKPA SOSİAL, MƏDƏNİ VƏ HUMANİTAR MƏSƏLƏLƏR KOMİSSİYASININ 5-ci İCLASI***

***"TÜRKPA ÜZV ÖLKƏLƏRİ ARASINDA FƏLAKƏT VƏ BÖHRAN İDARƏETMƏ MƏSƏLƏLƏRİNDƏ ƏMƏKDAŞLIQ" mövzusunda***

***TÖVSİYƏ QƏRARI***

TÜRKPA Sosial, Mədəni və Humanitar Məsələlər Daimi Komissiyası beşinci iclasında TÜRKPA Ölkələri Arasında Fəlakət və Böhran İdarəetmə Məsələlərində Əməkdaşlıq mövzusunu müzakirə etmişdir.

Hər bir TÜRKPA üzv ölkəsi üçün Böhran və Fəlakət İdarəetməsi mühüm məsələdir. Hər bir TÜRKPA üzv ölkəsinin Böhran və Fəlakətin İdarəetmə məsələlərindəki imkanlarının təkmilləşdirilməsi TÜRKPA üzv ölkələri arasında bu sahədə əməkdaşlıq yolu ilə mümkün olacaqdır.

Böhran İdarəetməsinin müxtəlif mövzuları arasında Fəlakət İdarəetməsinin xüsusi yeri var. Mövcud fəlakət risklərinin Azərbaycan, Qazaxıstan, Qırğızıstan və Türkiyəyə asanlıqla təsir göstərə biləcəyindən, Böhran İdarəetmə mövzusunda inkişaf etdiriləcək əməkdaşlıq prosesində prioritetin Fəlakət İdarəetməsinə verilməsi mümkün görünür.

Bu çərçivədə aşağıdakı tövsiyələr qərara alınmışdır:

1. TÜRKPA üzv ölkələri arasında Fəlakət və Böhran İdarəetmə məsələlərində əməkdaşlığın inkişaf etdirilməsi, bu çərçivədə Fəlakət İdarəetməsinə üstünlük verilməsi;

2. Türk Şurası çərçivəsində TÜRKPA üzvü ölkələrin öz dövlət quruluşu içində yaratdığı Böhran və Fəlakət İdarəetmə Mərkəzlərinin bağlı olduğu əlaqədar nazirliklər arasında ikitərəfli və ya çoxtərəfli əməkdaşlıq sazişlərinin təsdiqlənməsi;

3. Böhran və Fəlakət İdarəetmə Mərkəzləri arasında çoxtərəfli əməkdaşlıq üzrə müntəzəm görüşlərin keçirilməsi;

4. Böhran və Fəlakət İdarəetmə Mərkəzləri arasında əlaqələrin inkişaf etdirilməsi və daimi kommunikasiya şəbəkəsinin yaradılması;

5. Böhran və Fəlakət İdarəetmə Mərkəzlərinə bağlı, fəlakətlərə ilk müdaxilə edən axtarış və xilas etmə qrupları kimi birliklər arasında əməkdaşlığın bazasının gücləndirilməsi məqsədilə fəaliyyətin təşkili, bu çərçivədə birgə təlim və məşğələlərin həyata keçirilməsi;

6. Böhran və Fəlakət İdarəetmə Mərkəzlərinə bağlı axtarış və xilas etmə qrupları arasında hər ölkənin ev sahibliyində keçiriləcək görüşlər kimi müntəzəm və ardıcıl əməkdaşlıq fəaliyyətinin təşkili;

7. Böhran və Fəlakət İdarəetmə Mərkəzlərinə bağlı axtarış və xilas etmə qrupları arasında ilk (ilkin) əməkdaşlıq görüşləri, məşğələ və təlimlərin Türkiyədə təşkil edilməsi.